**İtaliya Baş nazirinin müavini G7 toplantısında Bakıda keçiriləcək COP29-dan danışıb**

“Böyük Yeddilik” (G7) ölkələri ekoloji davamlılığın təmin olunmasına diqqət yetirəcək. Əbu-Dabidə nəzərdən keçirilən mövzular bu ilin noyabrında Azərbaycanın ev sahibliyi edəcəyi COP29-da əsas müzakirə mövzusu olacaq.

AZƏRTAC xəbər verir ki, bunu İtaliya Baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani iyulun 16-da Reggio Kalabriya şəhərində keçirilən G7 ölkələrinin ticarət nazirlərinin toplantısı zamanı deyib.

“Biz Ukrayna və Yaxın Şərqdəki müharibələr və Qırmızı dənizdəki gərginlik kimi sarsıntılar qarşısında süni intellekt kimi qlobal çağırışlarla birlikdə iqtisadi sistemlərimizi daha da möhkəm və təhlükəsiz etmək istəyirik”, - deyə Antonio Tayani qeyd edib.

O bildirib ki, ölkəsi qlobal bazarlarda biznes üçün bərabər şərait yaratmaq istəyir. Şirkətlərin istənilən bazarda bərabər şərtlərlə rəqabət aparmasına şərait yaratmaq üçün ədalətli şərtlər və ümumi qaydaları təmin etmək lazımdır. Ticarət azadlıqları, təhlükəsiz daşınma qlobal ticarət və davamlı artım üçün çox vacibdir.

Sonda toplantının yekununa dair “Kalabriya Bəyannaməsi” qəbul edilib. Toplantıda Türkiyə, Braziliya və Hindistan da təmsil olunub.

**Nihad Budaqov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Roma**

**AZƏRTAC**
**2024, 16 iyul**